## Hesabat formalarına dəyişikliklər

«Dövlət rüsumunun tutulması haqqında hesabat» formasına 2011-ci ildə sonuncu dəyişikliklər edildikdən sonra müvafiq qanunvericilik aktlarına: «Dövlət rüsumu haqqında» Qanuna və «Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısı və həmin növlərə xüsusi razılıq (lisenziya) verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri»nin 33-cü hissəsinə dəyişikliklər edilmişdir. Bununla əlaqədar, həmçinin, hesabat formasının sadələşdirilməsi məqsədilə «Dövlət rüsumunun tutulması haqqında hesabat»ın formasına da dəyişiklik və onun tərtib edilməsi qaydasına düzəliş edilməsi zərurəti yaranmışdır.

Beləliklə, hesabatın 1105, 1112, 1113-cü sətirlərinin adında redaktə xarakterli dəyişikliklər edilmişdir. Bundan başqa, hesabatın 1117-ci sətri (baytarlıq şəhadətnaməsinin, sertifikatının və baytarlıq preparatlarının qeydiyyat şəhadətnaməsinin verilməsi), 1118-ci (pestisidlərə, bioloji preparatlara və aqrokimyəvi maddələrə qeydiyyat şəhadətnaməsinin, idxal-karantin icazəsinin və fitosanitar sertifikatlarının verilməsi), o cümlədən 1117.1 və 1118.1-ci sətirlərindəki hərəkətlər «Dövlət rüsumu haqqında» Qanunun 18-ci maddəsində nəzərdə tutulduğu üçün həmin maddədə göstərilən hərəkətlər hesabatın 1105 və 1105.1-ci sətirlərinə aid edilmişdir. Qeyd edək ki, «Dövlət rüsumu haqqında» Qanunun 18-ci maddəsində bunlar əksini tapır: «İxtiranın faydalı modelinin, sənaye nümunəsinin, əmtəə nişanının, coğrafi göstəricinin, əsərin, əlaqəli hüquqlar obyektinin qeydə alınması, müvafiq mühafizə sənədlərinin verilməsi və onlarla bağlı digər hüquqi hərəkətlər, habelə icazələrin bəzi növlərinin verilməsi, nəqliyyat vasitələrinə və onların idarə edilməsi ilə bağlı hüquqi və fiziki şəxslərə xidmətlərin göstərilməsi».

1119-cu (tikinti, memarlıq və şəhərsalma sahəsində xidmətlərin göstərilməsi, mövsümi (səyyar) ticarət və xidmət yerlərinin müəyyən edilməsi, habelə küçə reklamının yerləşdirilməsinə birdəfəlik icazənin verilməsi) və 1119.1-ci sətrində göstərilən hərəkətlər «Dövlər rüsumu haqqında» Qanunun 31-ci maddəsində (müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilən hüquqi hərəkətlərə görə tutulan dövlət rüsumunun dərəcələri) nəzərdə tutulduğu üçün həmin maddədə göstərilən hərəkətlərin hesabatın 1114 və 1114.1-ci sətirlərinə aid edilməsi, o cümlədən standartlaşma və metrologiya sahəsində hüquqi hərəkətlər «Dövlət rüsumu haqqında» Qanunun 30-cu maddəsində ayrıca hərəkətlər kimi nəzərdə tutulduğu üçün hesabat formasının 1117 və 1117.1-ci sətirlərində əks olunması nəzərdə tutulmuşdur.

Bu yaxınlarda Azərbaycan Respublikasının Vergi Məcəlləsinə edilən dəyişiklik nəticəsində Məcəllənin 96.1-ci maddəsinə 2-ci bənd əlavə edilərək, xüsusi notarius tərəfindən bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlar (xərclər nəzərə alınmadan) fiziki şəxslərin gəlir vergisi üzrə vergitutma obyektlərinə aid edilmişdir. Həmçinin, Vergi Məcəlləsinin 149.2-ci maddəsinə əlavə və dəyişikliklər edilərək, xüsusi notariuslar tərəfindən gəlir vergisi bəyannaməsinin təqdim edilməsi müddəti hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq müəyyən edilmişdir. Vergi Məcəlləsinə edilmiş dəyişikliklər nəticəsində yeni bəyannamə forması olaraq «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi»nin hazırlanmasına zərurət yaranmışdır. Artıq yeni bəyannamə forması təsdiq edilmişdir.

Belə ki, iqtisadiyyatın ayrı-ayrı sektorlarında çalışan bir sıra vergi ödəyicilərinin muzdlu işlə əlaqədar təqdim etdikləri vergi bəyannamələrindəki əməkhaqqı məbləğləri təsərrüfat subyektinin real potensialı, eləcə də həmin sektor üzrə fəaliyyət göstərən və əməkhaqlarının düzgün müəyyən edilməsinə üstünlük verən vergi ödəyicilərinin göstəriciləri ilə uzlaşmır və hətta onlardan bir neçə dəfə aşağı olur. Xüsusilə, dövlət satınalmalarında iştirak edən, lakin dövlət sifarişlərini yerinə yetirmək üçün heç bir əsas vəsaiti, əmlakı, aktivi, texniki imkanı, lazımi səviyyədə işçi qüvvəsi və s. olmayan və riskli hesab edilən malgöndərənlərin (podratçıların) vergiyə cəlb olunması məsələləri vergi nəzarətinin artırılmasını tələb edir. Bu sahəyə nəzarətin artırılması baxımından rəsmiləşdirilməmiş iş yerlərinin qeydiyyatının düzgün aparılması, əmək haqlarının real orta aylıq əmək haqlarına uyğunluğunun nəzarətdə saxlanması, eləcə də dövlət satınalamalarında iştirak edən vergi ödəyicilərində nəzarəti gücləndirmək məqsədilə əmək münasibətləri sahəsində vergi nəzarətinin gücləndirilməsi barədə konsepsiya hazırlanmış və muzdli işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsinə əlavələrin edilməsi nəzərdə tutulur.

Arzu İBRAHİMOVA